# Azərbaycan-Avstraliya əlaqələri yeni inkişaf mərhələsindədir

İyunun 4-də Azərbaycan-Avstraliya parlamentlərarası işçi qrupunun üzvləri Avstraliya Parlamentinin nümayəndə heyəti ilə görüşüblər. Görüşdə Azərbaycan-Avstraliya parlamentlərarası əlaqələri müzakirə olunub.

Azərbaycan-Avstraliya parlamentlərarası işçi qrupunun rəhbəri Xanlar Fətiyev qeyd edib ki, Milli Məclisdə Azərbaycan-Avstraliya parlamentlərarası işçi qrupu yaradılıb və uğurla fəaliyyət göstərir.

Görüşdə Azərbaycanın keçdiyi tarixi yol, ölkədə gedən sosial-iqtisadi inkişaf prosesi və Milli Məclisin strukturu barədə qonaqlara məlumat verilib. Bildirilib ki, Azərbaycan Şərqdə ilk demokratik respublika olub. 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ilə ölkədə parlamentin də əsası qoyulub. XX əsrin 20-ci illərində ölkəmiz sovet ordusu tərəfindən işğal edilib və 70 il Sovet İttifaqının tərkibində olub. 1991-ci ildə isə öz müstəqilliyini bərpa edən Azərbaycan 20 ildən artıqdır ki, müstəqillik yolu ilə uğurla irəliləyir.

Azərbaycan-Avstraliya parlamentlərarası işçi qrupunun üzvü Çingiz Əsədullayev Azərbaycan-Avstraliya parlamentləri arasındakı əlaqələrin önəmindən danışıb. Vurğulayıb ki, Azərbaycan Milli Məclisində hazırda 70-dən artıq ölkə parlamenti ilə dostluq qrupları fəaliyyət göstərir və bu əlaqələrin inkişafına xidmət edir.

Qonaqlar Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə də məlumatlandırılıb.

Avstraliya Parlamentinin üzvü Lük Simpkins isə iki ölkə arasında əlaqələrin möhkəmləndirilməsinin vacibliyinə toxunub. Görüş qarşılıqlı maraq kəsb edən məsələlərin müzakirəsi ilə davam etdirilib.

***"Azərbaycan"***